**Fidan ASLANOVA**
BMA-nın dissertantı
Ünvan: Bakı, Şəmsi Bədəlbəyli 98
Email: rebella_fleur@mail.ru

# FİRƏNGİZ ƏLİZADƏNİN "MUĞFLAGAMENKO" KOMPOZİSİYASINDA MUĞAM VƏ FLAMENKO XÜSUSİYYƏTLƏRİNİN SİNTEZİ

***Xülasə:*** *Fidan Aslanovanın "Firəngiz Əlizadənin "Mugflagamenco" kompozisiyasında muğam və flamenko xüsusiyyətlərinin sintezi" adlı məqaləsində Azərbaycan Respublikasının Xalq artisti, professor Firəngiz Əlizadənin qarışıq ansambl üçün yazdığı "Mugflagamenco" əsərinin təhlili verilir. Kompozisiyada muğam və flamenko elementlərinin qovuşdurulması göstərilir. Əsərin ifaçı tərkibi, quruluş xüsusiyyətləri nəzərdən keçirilir.*
***Açar sözlər:*** *Firəngiz Əlizadə, "Mugflagamenco", "Çahargah" muğamı, flamenko, Nieuw Ensemble*

Azərbaycan Respublikasının xalq artisti, bəstəkar, professor, YUNESKO-nun Sülh artisti Firəngiz Əlizadə sənət yolunda yeni cığırlar açan, öz fərdi üslubunu yaradan sənətkarlardandır. Onun müxtəlif janrlarda yaratdığı əsərlərdə bəstəkarın axtarışları, maraq dairəsinin genişliyi özünü parlaq şəkildə büruzə verir. F.Əlizadənin sərhədləri aşan müxtəlif xarici ölkələrin musiqi kollektivlərinin sifarişi ilə yazılan, bir çox ölkələrin ifaçılarının repertuarında özünə geniş yer tutan əsərlərində Şərq-Qərb sintezi çox maraqlı tərzdə öz təzahürünü tapmışdır.

Bəstəkarın musiqisinə xas olan dərin fəlsəfilik, psixolojilik daim Şərq sənətinin incisi olan muğamdan bəhrələnmiş, muğam onun yaradıcılığını qidalandıran zəngin, tükənməz bir çeşmə olmuşdur. F.Əlizadənin violonçel və hazırlanmış royal üçün "Habilsayağı" (1979), simli kvartet, zərb alətləri və sintezator üçün "Muğamsayağı" (1993), solo gitara üçün "Fantaziya" (1994), solo violonçel üçün "Eşq havası" (1998), xanəndə, flamenko ifaçısı və ansambl üçün "Mugflagamenco" (2011) kimi əsərlərində Şərq dünyasının fenomeni olan muğam müasir musiqinin intonasiyaları ilə üzvi surətdə əlaqələndirilmişdir. "Nəhəng kainatdan bizim payımıza bir planet düşüb və biz həmin planeti mənimsəyərək, onun daxilində yeni-yeni üfüqlər kəşf edirik" deyən [3, s. 34] F.Əlizadənin yaratdığı hər bir əsər, bəstəkarın yaradıcılığının daim muğamdan bəhrələnməsinin parlaq təzahürüdür. F.Əlizadə muğam sənətinin dərin qatlarına nüfuz etməyə cəhd göstərərək, muğam sənətinin çox maraqlı bir tərəfini – muğam ifaçılığının xüsusiyyətlərini öz əsərlərində əks etdirmişdir: "Habilsayağı", "Mugflagamenco" kompozisiyaları buna bariz nümunədir. Bəstəkarın bu əsərlərini dinləyib, onlara yaxından bələd olduqdan sonra F.Əlizadənin "Muğam sənəti dünya musiqisi kontekstində" məqaləsində vurğulanan sərrast ifadəsi – "Muğam sənəti zamanları bir-birinə qovuşduran mənəvi, ruhani bir əlaqədir" fikri yada düşür [2, s. 39].

F.Əlizadənin "Mugflagamenco" kompozisiyası 2011-ci ildə Almaniyada (Berlin) bəstələnmiş, həmin il Amsterdamda (Hollandiya) dirijor Ed Spanyardın idarəsi altında "Nieuw Ensemble" kamera orkestri, solistlər – xanəndə Zabit Nəbizadə, tarzən – Ələsgər Məmmədov, həmçinin məşhur flamenko ifaçısı Karlos Moreno Deniya Artur Raman tərəfindən uğurla ifa olunmuşdur. Hollandiyanın paytaxtı Amsterdamda keçirilən "Flamenco Biennale" III Beynəlxalq Flamenko Musiqi festivalında (21-30 yanvar 2011) ilk dəfə ifa olunan bu əsər festivalın təşkilat komitəsinin təklifi ilə bəstələnmişdir.

"Mugflagamenco" kompozisiyası dərin məzmunlu əsərdir və musiqi məzmunu tədricən, aramla açılır. Əsərdə coşqun xasiyyətli, geniş improvizə səciyyəli inkişaf fazalarını müşahidə edirik. İmprovizəli fazalar əsərin musiqi baxımından inkişafına zəmin yaradır. Əsər "Çahargah" üzərində möhtəşəm, əzəmətli instrumental girişlə başlanır.

Öz melodik çalarlarına görə flamenko "Mayeyi Çahargah"a çox yaxındır. Şərq və Qərb arasında hər nə qədər üslub müxtəlifliyi olsa da, müəyyən dərəcədə intonasiya həmahəngliyi effekti əldə olunur. Bu cəhət əsərin ilk səslərində artıq qabarıq hiss olunur.

Bəstəkar hər iki sənət növünün sərbəst ölçülü improvizə xassəsindən istifadə etmişdir. Ona görə də əsərdə bəzən ritmik ölçünü tətbiq etmir, bəzən isə müşayiəti dəqiq ölçüyə əsaslanan orijinal ritmik baza yaradır. Xüsusilə kulminasiyaya doğru sərbəst ölçülü vokal partiya burada instumental müşayiətin ciddi metrik fonuna əsaslanır.

Digər tərəfdən, əsər xanəndənin şaqraq zəngulələri, zəngin və rövnəqli ifası, texniki imkanları üçün də geniş meydandır. Eyni fikri flamenko ifaçısına da şamil etmək olar. Beləliklə, bəstəkar bir-birinə zidd olmayan muğam və flamenko intonasiyalarını işlətməklə maraqlı və orijinal kompozisiya quraşdırmışdır.

Flamenko ifaçısının vokal partiyasında melodik və lad-harmonik baxımdan modallıq hökm sürür. Modallığın əsasən iki xüsusiyyətinə təsadüf edirik. Bunlardan birincisi – frigik dönməsi və ərəb qammasıdır. Modallığın frigik lada əsaslanması monodiklik yaradır. Səs yüksəkliyində hökmran mövqe tutan dominanta funksiyası bu ladların əsər boyu mühümlüyünə işarə edir. İspan ifaçısının vokal partiyasında maraq doğuran xüsusiyyətlərdən digəri isə əndəliz kadensiyasıdır (por arriba). Bu kadensiyanın tətbiqi əsərin səslənməsinə əlavə konstruktiv elementlər daxil edir.

Bəzən ispan ifaçısının partiyasında major ladına da rast gəlirik ki, bu da ənənəvi flamenko üslubunda olan ladlarla (farruka, milonqa və s.) ilə assosiasiya doğurur. Ümumilikdə götürsək, flamenko – cənub-ispan (əndəliz) xalq musiqisi – mahnı (cante) və rəqsin (baile) vəhdətidir. Məlum olduğu kimi, flamenkonun üslub cəhətdən bir-birindən fərqli olan iki növü vardır. Bunlardan birincisi qədim "cante hondo" (jondo) – dərin, ciddi dramatik üslubdur. Onu bəzən "cante granda" adlandırırlar ("yüksək üslub"). İkincisi isə daha müasirdir və "cante chico" ("sadə üslub") adlanır. Bu üslublardan məhz birincisi hazırki əsərin vokal partiyasına sirayət etmişdir. Ümümilikdə götürsək, Azərbaycan muğam sənəti kimi, flamenkonun da çoxsaylı nümunələri mövcuddur və bu nümunələr arasında hər hansı bir sərhəd çəkmək olduqca çətindir.

İspan müğənnisinin solo partiyasında ən qədim musiqili poetik ənənələr özünəməxsus musiqi motivləri ilə qarşılıqlı vəhdət yaradır. Burada Əndəliz, Sevilya, Qranada, Kordovanın kanonik standartlarına uyğun olan spesifik ifa texnikası tətbiq olunmuşdur. Mürəkkəb ritmik sərbəstlik not yazısını mümkünsüz edir, odur ki, vokal partiya, eləcə də muğam solosu şifahi yolla ifa olunur və bu səbəbdən partituraya daxil edilmir. Bu bir daha göstərir ki, həm muğam, həm də flamenko bədii yaradıcılıq üçün böyük imkanlar açan sənət növüdür.

Hər iki vokal ifanın xarakteri parlaq, dramatikdir. Melodik improvizasiya bir tərəfdən ənənəvi ispan melodik növünə (fandanqo, frigik ladı), digər tərəfdən "Çahargah" məqamına söykənir. Zəngin melizmatika flamenkonu muğama bir daha yaxınlaşdırır. İspan vokal tərzində mikrointervallardan (yarım ton həcmindən də kiçik) istifadə olunmuşdur. Əsasən portamento ifa üsulu tətbiq edilmişdir. Bir səsdən digərinə rəvan keçid baş verir, yəni səslər birbaşa dəqiq götürülmür. Tessitura dardır, çünki flamenko vokal tərzi üçün ümumiyyətlə, seksta intervalı həcmində dar diapazon xasdır. Burada sual meydana çıxır: Bəs görəsən müğənni melodik zənginliyi necə əldə edir? Bu, müxtəlif tembr və dinamik çalarlar, mikrointervallar, melizm variantları vasitəsilə əldə edilir. Bəzən ispan müğənnisinin partiyasında vokal solonun sabit və müntəzəm şəkildə olmaması da onu muğama yaxınlaşdırır.

Əsərin orkestr dili kifayət qədər zəngindir. Burada XX əsr musiqi kompozisiyasında geniş yayılan metod və texniki üsuldan – aleatorikadan istifadə olunmuşdur. Musiqi mətninin, səs strukturlarının təsadüfiliyi və mütəhərrikliyi orkestrdə geniş tətbiq olunmuşdur. Qeyd edək ki, bu xüsusiyyəti Qərbi Avropa və rus bəstəkarlarından K.Ştokhauzen, C.Keyc, P.Bulez, V.Lütoslavski, E.Denisov, R.Şedrinin əsərlərində görmək mümkündür.

Aleatorikanın tətbiqi zamanı ifa prosesinə "təsadüf" elementi daxil edilir. Bu elementi əldə etmək üçün ifaçıların istəyinə uyğun olaraq ayrı-ayrı parçalar dəyişilmiş halda səslənir, bəzən belə təsadüfi elementlər bir neçə xanədən ibarət olur. İfaçıların səlahiyyətləri artdığı halda bəstəkar əsər üzərindəki məsuliyyəti onların ixtiyarına verir və öz üzərindən götürür. Beləliklə, hər bir ifaçı qarşısındakı sxemi öz istədiyi kimi yerinə yetirir.

Partituranın not yazısı bəzən simvol-işarələrdən təşkil olunur. Bir neçə ifaçının eyni zamanda müxtəlif parçalar səsləndirməsi də mümkündür yaxud orkestrin musiqiçiləri kollektiv şəkildə improvizasiya edirlər və nəyə qadir olduqlarını nümayiş etdirirlər. Hər dəfə yeni səslənən belə bir quruluş bəstəkarın ideya və zövqündən asılı olmayan yeni formanı əmələ gətirir.

Maraqlıdır ki, aleatorikanı tətbiq edərək, bəstəkar aleatorikanın köklərinin qədim xalq musiqi improvizasiyasından təkan almasını da nəzərə çarpdırır. C.Keyc, K.Ştokhauzen, P.Bulez, V.Lütoslavski, S.Bussotti kimi bəstəkarların öz yaradıcılığında bu üsula əl atması bir nümunə olaraq aleatorikanın Azərbaycan musiqisinə də tətbiqini mümkün etmişdir. Bəstəkarın rolu müəllifdən daha çox "təşkilatçı" kimi özünü göstərir. Təsadüfilik elementi əsərin quruluşunda əksini tapmışdır. Hissələrin ardıcıllığının ifaçılar tərəfindən müstəqil şəkildə müəyyənləşdirməsinə və istədikləri templəri seçməyə şərait yaradır. Odur ki, ifaçılar əsərin müəyyən mənada həmmüəlli-

finə çevrilirlər, lakin eyni zamanda bəstəkar tərəfindən göstərilmiş müəyyən çərçivələrdən çıxmırlar.




F.Əlizadə bu əsərində dəqiq yazılmış musiqi ilə yanaşı, ayrı-ayrı orkestr qrupları və solo alətlər tərəfindən ifa olunan improvizəli epizodları da daxil etmişdir. Ümumiyyətlə, muğam F.Əlizadənin bütün əsərlərinin fəlsəfəsi, onun fikirlərinin, yaradıcılığının ilham mənbəyidir. Şərq-Qərb dalğasını təmsil edən bəstəkarın “Mugflagamenco” kompozisiyası onun bu istiqamətdə yeni axtarışlarını özündə əks etdirir.

## ƏDƏBİYYAT:

1. APA xəbət agentliyi, Amsterdamda bəstəkar Firəngiz Əlizadənin yeni əsərinin premyerası olub. (02 fevral 2011) – apa.az/print/212041.
2. Əlizadə F.Ə. Muğam sənəti dünya musiqisi kontekstində. // “Muğam” jurnalı, №1, 2007, s. 34-47.
3. “Muğam” jurnalı, № 1, 2007, 108 s.
4. Денисов Э.В. Стабильные и мобильные элементы музыкальной формы и их взаимодействие, в его кн.: Современная музыка и проблемы эволюции композиторской техники. М.:Советский композитор, 1986, с. 112 - 136.
5. Коройтек Ц. Техника композиции в музыке XX в., М., Музыка, 1976, 358 с.
6. Фалья М. Канте хондо. Его истоки, значение, влияние на европейское искусство. // Статьи о музыке и музыкантах. М.: Музыка,1971, 111 с.

**Notoqrafiya:**
1. Əlizadə F.Ə. Mugflagamenco. Əlyazma. 2010, 40 s.

**Фидан АСЛАНОВА**
диссертант ВМА

## СИНТЕЗ ОСОБЕННОСТЕЙ МУГАМА И ФЛАМЕНКО В КОМПОЗИЦИИ ФРАНГИЗ АЛИЗАДЕ «MUGFLAGAMENCO»

***Резюме:*** *В данной статье представлен анализ произведения «Mugflagamenco» (для смешанного ансамбля) известного азербайджанского композитора Франгиз Ализаде. Раскрываются особенности соединения элементов мугама и фламенко, а также исполнительский состав и особенности структуры произведения.*
***Ключевые слова:*** *Франгиз Ализаде, "Mugflagamenco", мугам "Чахаргях", фламенко, Nieuw Ensemble*

**Fidan ASLANOVA**
Candidate for a degree of BMA

## SYNTHESIS OF THE FEATURES OF MUGHAM AND FLAMENKO IN THECOMPOSITION OF FRANGHIZ ALI-ZADEH'S "MUGFLAGAMENCO"

***Summary:*** *Analysis of the work of "Mugflagamenko", that has been written for the mixture ensemble by prof. Franghiz Ali-Zadeh, the People's Artist of the Azerbaijan Republic, is given in the article of "Synthesis of the features of Mugham and Flamenko in the Franghiz Ali-Zadeh's "Mugflagamenco" Composition" of Fidan Aslanova. In the Composition joining of the elements of mugham and flamenco is demonstrated. Performers compound of the work, structure characteristics are considered.*
***Key words:*** *Franghiz Ali-Zadeh, "Mugflagamenco", Chahargah mugham, flamenco, Nieuw Ensemble*

**Rəyçilər:** sənətşünaslıq üzrə elmlər doktoru, professor Cəmilə Həsənova;
sənətşünaslıq üzrə elmlər doktoru, professor Abbasqulu Nəcəfzadə